# Xalq şairi Fikrət Qocanın yaradıcılığı ətrafında oxucu düşüncələri



İsmayıl İlməzli

Ötən əsrin ortalarında dövrümüzün böyük ədibləri yazıçı Anar, Elçin, şair Fikrət Qoca, Məmməd Araz, yazıçı Mövlud Süleymanlı kimi görkəmli qələm sahiblərinin gəlişi ilə Azərbaycan ədəbi mühitinə bahar nəsimi kimi təzə-tər, təravətli bir yaradıcılıq mühitinin gəlişi bütün aydınlığı ilə özünü büruzə verdi. Ədəbi gənclik bu mühiti sevə-sevə, qədəm-qədəm izləyir, onu özünə meyar bilir, ədəbi yaradıcılıq məktəbi timsalında görürdü. Nəsrimizdə və poeziyamızda yeni deyim tərzi, yeni yaradıcılıq üfüqləri açılır və durmadan genişlənirdi. Müasir Azərbaycan ədəbi mühitində özlərinə xüsusi yer tutmuş indiki yazıçı və şairlərimizin bir çoxları məhz yuxarıda adlarını çəkdiyim görkəmli şəxsiyyətlərin yaratdıqları ədəbi məktəbin davamçılarıdırlar...

Həmin sənətkarlar içində önəmli yeri olan F. Qoca hələ gənclik illərindən ədəbi ictimaiyyətin - istər yaşlı nəslin, istərsə gəncliyin diqqətini öz yaradıcılığı üzərində cəmləşdirən, gələcəyinə böyük ümidlər bəslənən, əsərləri sevilə-sevilə oxunan bir şair kimi öz yerini tutmuşdu...

Yaradıcı gəncliyin uğurlarını qayğıkeşliklə izləyən, haqsız tənqid və təqiblərdən mətinliklə qoruyan, Azərbaycanımızın mütəfəkkir şairi Rəsul Rza F. Qocanın gənclik illərindəki yaradıcılığını bu sayaq dəyərləndirmişdi: "Fikrət Qocanın şeirlərində məni sevindirən bu şeirlərin əksəriyyətində olan qüvvətli yenilik hissidir... Onun ən yaxşı şeirlərində mədəni bir şairin, ürəyi sözlə dolu bir insanın nəyə isə məhəbbət, nəyə isə nifrət aşılamaq istəyən bir şairin səsini eşidirik".

F.Qocanın ədəbi dünyamıza uğurlu gəlişini təmsil edən ilk kitablarından "Qağayı" adlı şeirlər kitabına Rəsul Rza kimi görkəmli bir şairin redaktorluğu da təsadüfdən yox, böyük şairimizin, gənc qələm sahibinin gələcəyinə dərin etimad və inamından doğulmuş, bu etimad və inam bu günümüzdə yaradıcılığı geniş oxucu kütləsi tərəfindən dərin rəğbətlə qarşılanan, xarici ölkələrdə də geniş yayılan, yüksək dərəcədə dəyərləndirilən, şeirlərinə onlarca mahnılar bəstələnən, bədii nəsrimizdə də sanballı əsərlər yaradan bu günümüzün sevimli şairi F. Qoca timsalında özünü göstərdi. Şairin hələ gənclik illərində qələmə aldığı "Söhbət" adlı şeiri bir oxucu düşüncəsi ilə məni belə qənaətə gətirir ki, bu şeiri poetik yaradıcılığın mənaməzmun düsturu kimi qəbul etmək tam mənası ilə yerinə düşərdi:

*Fəhlə qardaş,*
*yavaş.*
*Bir şeir oxuyum, qulaq as.*
*- Nə deyirəm, oxu.*
*Mən də əlimi saxlayım bir az.*
*Sanballı misraların varsa,*
*çəkicimin zərbəsindən*
*şerinin zərbəsi ağır olarsa,*
*buyur, söz sənindir.*
*Çəkicimdən əzəl*
*misranı endir.*
*Əgər elə misran yoxsa,*
*qardaş, incimə.*
*Nə özünü yor,*
*nə məni ləngit.*

Fikrət müəllim vətənpərvər şair olmaqla yanaşı zamanın, dünyanın, dünyada baş verən qlobal hadisələrin nəbzini gənclik illərindən dəqiqliklə tutan, gündəlik həyatımızın qayğı və sevinclərinə qələmin dili ilə sanballı, yığcam, yığcamlığı qədər geniş və dərin mənalar kəsb edən əsərləri ilə cavab verməklə hər zaman ön cərgədə dayanan ədiblərimizdən olmuşdur. "Qağayı" adlı şeirlər kitabında oxuduğum "Anam yaman fikirləşir" şeri ilə, beş oğul böyütmüş, faşistlərə qarşı döyüşlərdə oğullar itirən, oğul yolu gözləyib ağlamaqdan gözlərinə tor gəlmiş ata-anaları, ömür-gün yoldaşına həsrət, ataları müharibə qurbanlarına çevrilən körpə balaları ilə kişisiz dam altında cavankən dul qalmış gəlinləri, intizarla qardaş yolu gözləyən bacıları görmüş, müharibə fəlakətinin törətdiyi aclıq, səfalət, yoxsulluq kimi acınacaqlı günlərin şahidi olmuş mehriban, müqəddəs, həssas ana sürətini yaratmışdır.

Ana çaşqındır. Qulağı dünyanın yenidən qarışacağı, oğullarının cəbhələrə aparıla biləcəyi qorxusunu almışdır. Bu səbəbdən fikirləri dolaşıq düşmüşdür. Müəllif, ananın bu qorxularla tək olmadığını, yer üzündə milyon-milyon ananın bu qayğıların ağırlığı altında üzüldüyünü belə qələmə almışdır:



*Anam yaman fikirlidir,*
*Fikirlidir analar.*
*Yer üzündə milyon-milyon*
*Anam kimi ana var.*

Fikrət müəllim vətənin ləyaqətli oğul-qızları ilə fəxr edən, milli-mənəvi dəyərlərimizi uca tutan şairimizdir. "Bayraq tutan oğullara" poemasında Xankəndində kilsədə gizlənən, ac-susuz yeddi gün düşmənə müqavimət göstərən, yeddi nəfər döyüşçü yoldaşını itirdikdən sonra, sağında və solunda əli avtomatlı iki erməni yaraqlısı olmaqla düşmən qarşısına Azərbaycan bayrağı ilə çıxan, şəkli rus jurnalisti tərəfindən çəkilib " Oqonyok" jurnalında çap olunan, adı və sonrakı taleyi rus jurnalistinə də qaranlıq qalan 17 -18 yaşlı azərbaycanlı gəncin mətinliyini böyük fəxr və ürək yanğısı ilə tərənnüm edir. Vətənin belə igid oğullarını doğma övladı gözündə görür, onun yenilməzliyi ilə fəxr edir. Belə oğul itkisinin sarsıntısı qarşısında üzülsə də şerini nikbin ruhda tamamlayır:

*Sən oğulsan,*
*mənim də atadır adım.*
*Şəklinə baxdım-baxdım,*
*gözlərinə qurban olum,*
*ağlamadım.*
*Ağlamadım,*
*oğul, Kişi ağlayarmı*
*bərkdə, darda?*
*Bu günə də şükür olsun,*
*çox şükür ki,*
*Bayraq da var,*
*Bayraq tutan oğullar da.*

Şair, "Tərcümeyi-halımda yazdım" şeirində yazır:

*... Yox, mən tərcümeyi-halımda*
*"Babək küçəsində doğulmuşam" yazmaq*
*istəyirəm.*
*"Koroğlu meydanında" qovma-qaç*
*oynamışam,*
*gizlənpaç oynamışam.*
*Ölərəm, əyilmərəm, düşmənlə girərəm*
*savaşa,*
*Axı, Koroğlunun mərd baxışları altında*
*dolmuşam yaşa.*
*Həcərimlə ilk dəfə Qaçaq Nəbinin*
*heykəli yanında görüşmüşəm.*
*Sonra Nəsimi bağından keçdik,*
*Heykəlin ayağı altından*
*qırmızı fəvvarə qalxır...*
*və ilaxır, və ilaxır.*

Şeirin qələmə alındığı dövrdə gözəl Bakımızın və böyüklü-kiçikli şəhərlərimizin gözəl və geniş istirahət parklarına, meydanlarına, prospekt və küçələrinə, mədəniyyət saraylarına, respublika səviyyəli xəstəxanalarına, sənaye obyektlərimizə, universitetlərimizə verilən əcnəbi adları, Azərbaycanımızın qanını içənlərə addımbaşına qoyulan heykəllər və heç bir məna-məzmun kəsb etməyən "Perevalnı", "Zavağzalnı", "Xrebtovı", "Paralelnı", "Bazarnı" kimi cəfəng küçə adları meydan sulayırdı. Şeir, milli dəyərlərimizə qatı kölgə salan bu cəfəngiyyatlara qarşı milliliyimizə sıx bağlı bir şairin etiraz səsi, əcnəbilərə qoyulan heykəllərinin yerində, ta qədim tarixlərimizdən Azərbaycan dünyasına adları qızıl hərflərlə həkk olunmuş igid babalarımızın, dövrümüzün qəhrəman və mərd oğullarının heykəllərini görmək, bağlarımıza, parklarımıza, saraylarımıza yurdumuzun şərəfini ləyaqətləndirən vətən övladlarının adlarının verilməsi arzusundan yaranmışdır.

Xəzərimizin, çaylarımızın, torpaqlarımızın ekologiyasının qorunması şairi ardıcıl düşündürən məsələlərdən olubdur. "Səyyada məktub" şeirində bu məsələyə belə toxunur:

*Yadına düşdü*
*sahilə dənizin atdığı*
*ölü bir balıq.*
*Dənizin gümüşü bir nəğməsi idi*
*o ölən.*
*Dənizin bir ləpəsi idi*
*o ölən*
*Dənizin şıltaq bir körpəsi,*
*mavi donunu soyunmuş*
*çılpaq bir körpəsi.*
*Balıqlar niyə qırılır?*
*Hər balıq dənizin bir dalğasıdı.*
*Xəzər ona görə quruyur.*
*Ona görə son zamanlar*
*əsəbi olub dəniz...*

Şairin "Yatmadığım gecələrdə" şeirlər kitabının ilk səhifəsindəki "Mən nəyəm ki?" misrası ilə başlanan şeiri böyük mənalar kəsb etməsi ilə yanaşı, oxucusuna dərin duyğular və düşüncələr bəxş edir. Bir oxucu kimi mən belə düşünürəm ki, Yer kürəmizə "yuxarıdan" baxmaq, dünya siyasətində hegemonluğa yiyələnmək cəhdində olanların baxışıdır. Belələrinin nəzərində "böyük Yer kürəsi", "böyük söz, böyük dağ, böyük canlı insan" kiçik görünür. Hansı baxışla baxsaq da, hərəmiz Yer kürəsinin düşünən, dərk edən, ayrılmaz bir parçasıyıq. Onun abadlığı abadlığımız, məhvi məhvimizdir. Bu baxımdan hamımız "ürək boyda bir Yer kürəsiyik"...

*Yuxarıdan baxanda*
*hamımız dönüb ürək boyda*
*bir Yer kürəsi oluruq.*
*Böyük söz,*
*böyük dağ,*
*böyük canlı insan -*
*Fərqi yoxdur ya böyük olsun*
*ya da balaca.*
*Yuxarıdan baxanda kiçik görünəcək,*
*aşağıdan baxanda - uca.*

"Aşağıdan baxmaq" - mənim düşüncələrimə görə - böyüklüyün böyüklüyünü, ucanın ucalığını dərk etmək, ona haqqın, səmimiliyin, təvazönün gözləri ilə baxmaqdır. Həmin təqdirdə gözlərimizə "böyük" böyük kimi, "uca" uca kimi görünəcəkdir.

*Yuxarıdan baxanda*
*sən də, mən də,*
*öldürən də, ölən də,*
*ağlayan da, gülən də -*
*hamımız oluruq bir Yer kürəsi.*
*"Yer kürəsi" -*
*hamımız bu adı daşıyırıq.*
*Ordan eşidilmir*
*Vyetnam torpağında kürəyimə*
*tökülən mərmilərin səsi.*
*Bilinmir*
*rənglər,*
*dillər,*
*ağır illər,*
*sərhəd,*
*səd,*
*tikanlı məftillər*
*Gözlərin sarılıq gətirən ağı,*
*ağaların ilan dərisindən*
*ayaqqabısı,*
*İlan ovlayanların*
*Tikan dağıtmış yalın ayağı.*

Gözəl dünyamızı, səxavət qaynağı Yer kürəmizi məhvə aparanlar niyyətlərini gerçəkləşdirdikcə gözlərinə öz köklərinin də Yer kürəsindən su içməsi kiçik görünür. Onun tükənməz sərvətlərinin, sonsuz nemətlərinin sayəsində hegemonluq pilləsinə yüksəldiklərini yada salmağı bacarmırlar... Yer kürəmizi kiçik ürəklərinin ölçüsünə münasib kiçik görürlər. Planetimizin məhvi onların da məhvi olacağı gözlərinə görünmür. Hərisliyə qapılan tamahlarının qatı pərdəsi gözlərini qapamışdır... Yer kürəsi sinəsində atılan güllələrin, mərmilərin, axıdılan qanların dəhşətindən bezikmişdir:

*Fəzada uçur yer kürəsi -*
*körpə əlindən qaçmış*
*mavi uşaq şarı.*

Kiçik bir ehtiyatsızlıq ucundan bu "mavi uşaq şarı" param-parça da ola bilər...

On illərlə əvvəllərin töhfəsi olan bu şeir öz aktuallığını və dəyərini bu günümüz üçün daha səciyyəvi şəkildə qoruyub saxlayır...

Yer kürəmizin bugünkü və gələcək taleyi hörmətli şairimizi bu gün də az düşündürüb, az həyəcana gətirmir. "Ramazan axşamında düşündüklərim" poeması dünyamızın qan çanağına dönməsinin, qlobal fəlakətlərə doğru durmadan gedişinin mənzərəsini aydın boyalarla əks etdirir. Yer kürəmiz elə sağalmaz bəlaya düçar olub ki, çarəsini yer üzündə tapmaq müşkülə çevrilib. Bu bəladan Allahın xəbəri yoxdur. Bəlanın baiskarı insan oğludur.

**Davamı kaspi.az saytında**